

**Bütün sənətlər gözəldir. Hər sənətin də öz gözəlliyi olduğu kimi, çətinliyi də yox deyil. İstənilən sənəti sevən də, sevdirən də insandır. Bu mənada, kitabxanaçılıq şərəfli sənətdir. Son zamanlar isə bu sənət sahiblərinə hökumətimiz tərəfindən də xüsusi qayğı göstərilir. Onlar müxtəlif mükafatlarla dəyərləndirilirlər.**

# Kitaba məhəbbət

Haqqında söhbət açacağımız Masallı rayon MKS də öz fəaliyyəti ilə seçilən mədəniyyət müəssisələrimizdəndir.

Masallı rayon kitabxanası 1924-cü ildə, cəmi 200 nüsxə kitab fondu ilə yaradılmışdır. Lakin yaradıldığı gündən etibarən geniş oxucu kütləsini özünə cəlb edən bu kitabxana getdikcə böyüdü, genişləndi. Artıq MKS 1 mərkəzi, 1 uşaq, 1 şəhər, 2 qəsəbə və 74 kənd kitabxana filialını özündə birləşdirir. İndi MKS-də 102 nəfər işləyir.

Onlardan 7 nəfəri ali təhsilli, 21 nəfəri xüsusi orta təhsilli, 74 nəfəri isə orta təhsillidir. MKS-in kitab fondu xeyli artırılaraq 449,4 min nüsxə təşkil edir ki, bunun da 90,6 faizini latın qrafikalı ədəbiyyat təşkil edir. Bu özü də pis nəticə deyil.

Sevindirici haldır ki, keçən ilin son yekunlarına görə oxucuların sayı 35800 nəfəri keçmişdir. Kitab verilişi isə 601000 nüsxə təşkil edir.

Masallı rayon MKS-də tez-tez müxtəlif tədbirlər keçirilir. Bu ilin əvvəlindən indiyədək "Şəxsiyyət və zaman", "Azərbaycan xalqının qüdrətli oğlu", "Heydər Əliyev və mədəniyyət", "Müstəqil Azərbaycan-20", 20 yanvar və Xocalı faciəsi ilə əlaqədar ədəbi-bədii kompozisiya, "Novruz bayramı", "Beynəlxalq Ana dili", "İşdə qəhrəman-evdə ana" və s. tədbirlər keçirilmişdir. Həmçinin IV Kitab bayramı (Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş), Heydər Əliyev-88 ümumrayon tədbiri, rayon yazarlarının "Masallının söz çələngi" kitabının təqdimatı keçirilmişdir.

Masallı rayon MKS-in belə tanınmasında, irəli getməsində heç şübhəsiz ki, bu müəssisənin direktoru Ələddin müəllimin çox böyük əmək payı var. Öz işgüzarlığı, tələbkarlığı ilə seçilən Ələddin müəllim 2007-ci ildən bu MKS-ə rəhbərlik edir.

Ələddin Nəzərov 1957-ci il iyulun 17-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub. Orta məktəbi uğurla bitirib. 1975-ci ildə BDU-nun kitabxanaçılıq fakültəsinin axşam şöbəsinə daxil olub. İşləyə-işləyə təhsilini davam etdirib. Necə deyərlər, əməkdən ayrılmayıb, zəhmətdə bərkiyib.

1983-cü ildə universiteti bitirdikdən sonra doğma rayonuna qayıdıb. Sevib-seçdiyi peşəsinə yiyələnib. 1983-cü ildən Masallı rayon MKS-də müxtəlif vəzifələrdə çalışıb. Ələddin müəllim rəhbərlik etdiyi mərkəzi kitabxananın fəal işçilərindən bir neçəsinin adını iftixarla çəkdi. Onlardan Rəvanə Məlikova, Şəmsurə Nəzirova, Gülər Piriyeva, Həbibə Hüseynova, İlhamə Mikayılova, Aysel Şahmarova öz işləri, kitabsevərlikləri ilə həmişə fərqlənir, oxucu auditoriyasının genişlənməsində böyük rol oynayırlar.

Ələddin müəllim fərqlənən bir neçə kitabxana filiallarının da adını vurğuladı. Belə ki, Türkova (müdiri Z.Məmmədova), Qəzvinova (müdiri Q.Fətullayeva), Xırmandalı (müdiri S.İbrahimova), Ramazanlı (müdiri N.Məmmədova), Öncəqala (müdiri N.Hidayətova), Qəriblər (müdiri R.Mehdiyeva) həmişə istər oxucularının sayı, istərsə də kitabsevərlərə lazımi qulluq göstərdiklərinə görə fərqləniblər. Biz bu filialları həmişə digərlərinə yaxşı nümunə kimi misal göstəririk.

**Ümumiyyətlə, rayonumuzda kitaba, kitabxanaya gənclərin marağının artması bizi həmişə sevindirir. Biz əlimizdən gələni əsirgəməməyə çalışırıq ki, istər məktəblilərin, istərsə də gənclərin kitabxanalarımıza meylinin yönəldilməsini hər vasitə ilə gücləndirək.**

**• E. MUSAQIZI**